DOI: https://doi.org/10.36719/2706-6185/57/18-22

**Sevda İsmayılova**
Bakı Dövlət Universiteti
tarix üzrə fəlsəfə doktoru
https://orcid.org/0000-0003-4450-6153
sevdaismayilova@rambler.ru

# Sovet hakimiyyətinin Azərbaycanda milli-mənəvi sahədə həyata keçirdiyi siyasət (1920–1940-cı illər)

## Xülasə

Məqalədə Azərbaycanda Aprel işğalından sonra sovet hakimiyyətinin 1920–1940-cı illərdə din, dil, təhsil, elm sahəsində apardığı siyasət və onun mahiyyəti açılır, II Dünya müharibəsindən sonrakı stalinizmin elm və təhsilə vurduğu zərbənin Azərbaycan elmində mənfi təzahürləri şərh edilir. Bolşevik hökumətinin “Allahsızlar cəmiyyəti” yaratması, Azərbaycan xalqını öz mənəvi köklərindən uzaqlaşdırmaq, onun birliyini sarsıtmaq üçün din xadimlərinə, məscidlərə, islam dini ayini olan məhərrəmliyə, müqəddəs bayramlardan Ramazan və Qurban bayramlarına qarşı mübarizəsi araşdırılır. Azərbaycanda yeni təhsil sisteminin yaradılmasında sovet hakimiyyətinin əsas siyasəti göstərilir, bu siyasətin mahiyyətcə sovet rejiminə və mövcud quruluşa sədaqətli yeni gənc nəsil yetişdirmək, savadlı yerli kadrlar hazırlamaqdan ibarət olması araşdırılır. Azərbaycanda sovet hakimiyyətinin savadsızlığın ləğvi, əlifba islahatları sahəsində həyata keçirdiyi siyasətin mahiyyəti açıqlanır. BDU-nun milliləşdirilməsi səbəbləri araşdırılır.

***Açar sözlər:*** *Azərbaycan SSR, sovet hakimiyyəti, xalq təhsili, əlifba islahatları, savadsızlığın ləğvi, kommunist ideologiyası, milliləşdirmə*

**Sevda Ismailova**
Baku State University
PhD in History
https://orcid.org/0000-0003-4450-6153
sevdaismayilova@rambler.ru

# The Policy Implemented by the Soviet Authority in the National-Moral Field in Azerbaijan (1920s-1940s)

## Abstract

The article reveals the policy of the Soviet government in Azerbaijan in the field of religion, language, education, science in 1920-1940, established after the April occupation, and its essence. Disclosing negative factors after II world war Stalinism in the science and features of Azerbaijan. The Bolshevik government's struggle against religious figures, mosques, the Islamic religious rite of Muharram, and the holy holidays of Ramadan and Eid al-Adha in order to create a "Godless Society" and distance the Azerbaijani people from their spiritual roots and undermine their unity is being investigated. It was emphasized that history and geography, which are considered "political subjects", are under the complete control of the Communist Party, and that these subjects are used as the main ideological weapon in the formation of the "new man" who will be the founder of the socialist society, and in fact, the Soviet citizen. The article also examines the essence of the Soviet government's policy in the elimination of illiteracy, alphabet reforms in Azerbaijan. The reasons for the nationalization of BSU were investigated.

***Keywords:*** *Azerbaijan SSR, Soviet power, public education, alphabet reforms, elimination of illiteracy, communist ideology, nationalization*


Creative Commons Attribution-NonCommercial 4.0 International License (CC BY-NC 4.0)

## Giriş

Azərbaycanın 1920-ci il aprelin 28-də XI Qızıl Ordu tərəfindən işğalından sonra sovet hakimiyyətinin quruculuq işləri başlandı. Digər sahələr kimi milli-mənəvi sahə də sovet ideologiyasına uyğunlaşdırılmalı idi. Yeni sovet insanında formalaşdırılan kommunist ideologiyası dinin məhv edilməsi və Allahın inkarı üzərində qurulmuşdu. Sovet hakimiyyəti Azərbaycan xalqını öz mənəvi köklərindən uzaqlaşdırmaq, onun birliyini sarsıtmaq üçün elə ilk günlərdən din xadimlərini cəmiyyətin tərəqqisinə mane olan təbəqə, gerilik, cəhalət yayan, əksinqilabçı, xalq düşməni adlandıraraq onları nüfuzdan salmağa, məhv etməyə, müsəlmanların toplaşdığı məscidləri isə dağıtmağa və ya onları klub, kitabxanaya çevirməyə başladı. Zorakı tədbirlər nəticəsində Şimali Azərbaycanda, guya Konstitusiyaya əsaslanan hakimiyyət orqanları formalaşdırıldı, sovet sosialist demokratiyası bərqərar oldu. Əslində isə yeni yaradılan demokratiya formal demokratiya idi. Moskvanın "vahid və bölünməz" imperiyanı bərpa etmək səylərinin nəticəsi idi. Milli-mənəvi dəyərlər özəlləşdirildi. Məzmunca milli, formaca sosialist mədəniyyəti, yeni sovet təhsili yaradıldı. Bu, bolşeviklərin "milli dilə olan qayğısını" əhaliyə nümayiş etdirməkdən ötrü idi. 27 iyun 1924-cü ildə Azərbaycan SSR MİK-in dövlət dili haqqında dekreti verildi (Sobraniye uzakoneniy i rasporyajeniy, 1924, s. 214). Əslində milli respublikalarda kommunist rejiminin mövqeyini möhkəmləndirməkdən ötrü milli dilin işlədilməsi üçün şəraitin yaradılması tələb olunurdu. Həm də xalq kütlələrinə kommunist ideyalarını aşılamaqdan ötrü savadlılığı, təhsil sisteminin səviyyəsini qaldırmaq lazım idi. Ali məktəblərin milliləşdirilməsi prosesi başlandı.

**Tədqiqat**

1926-cı ildə "Allahsızlar cəmiyyəti"nin Bakı bürosu yanında Azərbaycan dilində üç aylıq axşam kursları — dinə qarşı mübarizə kursları açıldı. Sovetləşmənin ilk günlərindən müsəlman ruhaniliyinin sosial-iqtisadi və silki hüquqları sarsıdıldı. 1937-ci ildə Moskvanın komandası ilə Azərbaycanda qolçomaq, əksinqilabçı, milliyyətçi adı ilə kütləvi həbslər başlandı. 1937-ci ilin iyulundan yerlərdə "üçlüklər" yaradıldı. Rusiya Federasiyası Federal Təhlükəsizlik Xidməti arxiv göstəricilərinə görə 1937–1938-ci illərdə siyasi əsaslar üzrə SSRİ-də 1.575.259 nəfər həbs edilmiş, onların böyük bir qismi isə güllələnmişdi (Lubyanka, 2004, s. 659). 1930-cu illərdə repressiyaya məruz qalmış din xadimləri də az deyildi. Onlardan biri, adı "fəal antisovet ünsürlərin cəmiyyətdən kənar edilib ləğv olunası şəxslərin siyahısı"na salınmış keçmiş Cənubi Qafqaz qazısı, 83 yaşlı Mir Məmmədkərim Mir Cəfər oğlu idi. O, dinin gizli yayılması ilə məşğul olmaqda, çadranın götürülməsi əleyhinə təbliğatda günahlandırılmış, axtarış zamanı isə evindən "39 ədəd müxtəlif antisovet Quran" müsadirə edilmişdi. Az. SSR XDİK Fövqəladə Üçlüyünün 1938-ci il mayın 2-də keçirilən iclasının qərarı ilə Mir Məmmədkərim Mir Cəfər oğlu güllələnmişdi (Bünyadov, 1993, s. 274–278). Şərur rayonunun Yaycı kəndindən olan molla Məhəmməd Hacı Əhməd oğlu və molla Ələkbər Cabbar oğlu da antisovet təbliğatı aparmaqda və panislamizmdə ittiham olunaraq Dövlət Siyasi İdarəsinin 5 mart 1931-ci ildə çıxardığı qərara əsasən güllələnmişdilər (Hüseynbəyli, 2006, s. 44–45). 1928-ci ilin dekabrında "Məscidlərin kəndlilərin mədəni ehtiyacı üçün verilməsi haqqında" məsələyə baxıldı. Müxtəlif idarələrə məscidlərdən minbərləri, kilsələrdən xaçları çıxarmaq, ağartmaq üçün əmr verildi (Dekrety Azrevkoma (1920–1921 gg.): Sbornik dokumentov, 1988, s. 254). Bütün Azərbaycanda 1929-cu ildə 400 məscid bağlanmışdı. 1929-cu ildə Azərbaycan qəzalarında 120 məscid binası zəbt edilib məktəb üçün istifadəyə verilmişdi (Azərbaycan tarixi, 2001, s. 44–45). Milli adət-ənənə və məişətimizə qarşı kampaniyalar keçirilirdi. İslam dini ayinlərinin keçirilməsinə qarşı da təbliğat işi gücləndirildi. Müqəddəs Qurban bayramı, Məhərrəmlik (aşura) mərasiminin keçirilməsi qadağan edilmişdi. Hətta milli bayram — yazın gəlməsi bayramı olan Novruz bayramı da dini bayram sayılaraq qadağan edilmişdi. 1927-ci ildə ramazanla bağlı bolşeviklərin hazırladığı tezislər dərc edildi. 11 maddədən ibarət olan bu tezislərdə orucluğun ancaq zərərindən bəhs edilirdi (Gadzhibeyli, 1993, s. 128). İslamın başqa mərasimləri kimi Qurban bayramı da bolşeviklər tərəfindən təqib edilirdi. Onlar mətbuatda pamfletlər, karikaturalarla çıxış edir, müsəlmanların dini hisslərini təhqir edirdilər. Sovet hakimiyyətinin Azərbaycandakı siyasətində yol verdiyi əyintilər bu hakimiyyətə qarşı müqavimət hərəkatına səbəb oldu. Sovet hakimiyyəti Azərbaycan xalqını öz mənəvi köklərindən uzaqlaşdırmaq üçün təhsil siyasətini bəhanə gətirərək ibtidai məktəbləri ilk növbədə dini məktəblərin mövcud olduğu

kəndlərdə inşa etməyi vacib sayırdı (ARPİİİSSA, n.d., s. 340). Müəllimlərin ümumi təhsil səviyyəsinin artırılmasına, onların "ideoloji" tərbiyəsinə xüsusi fikir verilirdi. 1936-cı ildən başlayaraq müəllimlərin attestasiyası keçirilirdi. Bu qərar ilə partiyaya sadiq müəllimlər müəyyənləşdirilməli, qohumları arasında "xalq düşməni" adını almış şəxslər isə məktəblərdən uzaqlaşdırılmalı idi. 1920-ci illərdə bolşevik hökumətinin irəli sürdüyü yanlış tezisə görə Azərbaycan "başdan-başa savadsızlar ölkəsi" idi, buna görə də Azərbaycanda xalq maarifinin birinci dərəcəli vəzifəsi əhalinin savadsızlığını ləğv etmək hesab olunurdu. Əslində isə, əhalinin bir hissəsi dini məktəblərdə, xeyli hissəsi isə çar hökumətinin dövründə açılmış müxtəlif tipli ibtidai və orta məktəblərdə təhsil almışdı. 1922–1923-cü dərs ilində savadsızlığı ləğvetmə kurs və məktəblərində 14336 nəfər çalışırdı. XKS-nin sədri Q.Musabəyovun rəhbərliyi ilə 1923-cü ilin dekabrın 17-də "Savadsızlıqla mübarizə komitəsi" təşkil edildi (ARPİİİSSA, n.d., s. 199). "Rədd olsun savadsızlıq cəmiyyəti" 1924-cü il iyulun 17-dən fəaliyyətə başladı. Xalq Daxili İşlər Komissarı H.Sultanov savadsızlığın əleyhinə yaradılmış cəmiyyətin sədri seçilmişdi. Yeniyetmələrin, 16–35 yaş arası insanların bu kurslara cəlb edilməsinə diqqət yetirilirdi (ARPİİİSSA, n.d., s. 49–50). 1923–1924-cü tədris ilində 21480 nəfər savadsızlığı ləğvetmə məntəqələrində ancaq əlifba savadı qazanmışdı (ARPİİİSSA, n.d., s. 165). Aprel işğalından sonra kommunistlər inzibati-amirlik sisteminin iradəsi olaraq yeni türk əlifbasına keçidi sürətləndirdilər. 1922-ci ilin mayında əlifbanın latınlaşdırılması işini aparan Yeni Türk Əlifbası (YTƏ) Daimi Komitəsi yaradıldı. 1923-cü il oktyabrın 20-də Azərbaycan SSR MİK-in qəbul etdiyi "Yeni Azərbaycan əlifbasının dövlət əlifbası kimi tanınması haqqında" dekretinə uyğun olaraq bütün idarə və təşkilatlara kargüzarlığı həm əski, həm də yeni əlifbada aparmaq haqqında göstəriş verildi. "Yeni türk əlifbası haqqında" dekretə əsasən o, "dövlət və məcburi" əlifba kimi elan edildi. Lakin əhalinin əksəriyyəti hələ bu əlifba ilə tanış deyildi. Kommunistlərin məntiqinə görə əlifba islahatı sosializm cəmiyyətinin yeni keyfiyyətli insanını formalaşdırmaqdan, xalqların irəli getməsi üçün öz keçmişləri ilə əlaqələri qətiyyətlə qırmalarından ötrü bir vasitə idi. Vahid şəklə salınmış latın əlifbası Azərbaycanda 1932-ci ilin iyununda qəbul edildi. 1928-ci ildə Türkiyədə latın əlifbasına keçildikdən sonra türk dünyasının mənəvi birliyinin möhkəmlənəcəyindən qorxan sovet hakimiyyətinin göstərişi ilə Azərbaycan yazısının latın əlifbasından rus əlifbasına keçirilməsi haqqında Azərbaycan SSR Ali Soveti 1939-cu il iyulun 11-də qanun qəbul etdi. Qanunda göstərilirdi ki, Azərbaycan yazısı 1940-cı il yanvarın 1-dən başlayaraq latın əlifbasından rus əlifbasına keçirilsin (ARPİİİSSA, n.d., s. 1). M.Ə.Rəsulzadənin göstərdiyi kimi, mədəniyyətin ruslaşdırılması — bu, Azərbaycanın həqiqi bir faciəsi idi. Sovetləşdirmənin ilk dövrlərində bu siyasət mədəniyyətin "formaca milli, məzmunca kommunist" olmasından bəhs edən bolşevik formulu ilə maskalanırdı (Rəsulzadə, 1991, s. 98). Xalq Daxili İşlər Komissarlığı Dövlət Təhlükəsizlik İdarəsinin məlumat və arayışlarında Azərbaycanın bir sıra ziyalıları tərəfindən əlifba islahatı ilə bağlı etirazlar isə əksinqilabçı, milliyyətçi, milli qarşıdurma yaradan antisovet çıxışları kimi qiymətləndirilirdi. Azərbaycan SSR XDİK müavini Markaryan tərəfindən hazırlanmış bir arayışda "türkofillərin" yeni rus əlifbasına keçidə etirazları onların osmançılığı, türk mədəniyyətini təbliği kimi əsaslandırılır, əksinqilabi elementlərin yeni əlifbanı nüfuzdan salmaqdan ötrü dağıdıcı, ziyankar fəaliyyətləri "ifşa edilirdi". Sovet hakimiyyəti Azərbaycanının "nümunəvi", "milli" bir respublika olduğunu sübut etməli idi. Beləliklə, ali məktəblərin milliləşdirilməsi prosesi başlandı. 1923-cü il iyulun 15-də AK(b)P MK-nın qərarı ilə ali məktəblərə qəbul zamanı azərbaycanlılara üstünlük verilməli idi. 03 aprel 1927-ci ildə AK(b)P MK Rəyasət Heyəti Azərbaycan Dövlət Universitetinin daha da türkləşdirilməsi haqqında göstəriş verdi. 1927/28–1929/30-cu illərdə ADU-nun türkləşdirilməsi prosesi üç istiqamətdə gedirdi: Universitetə qəbul edilən abituriyentlər arasında azərbaycanlı tələbələrin sayının artırılması, akademik tərkibdə azərbaycanlıların sayının artırılması, Azərbaycan dilində dərslik və dərs vəsaitlərinin hazırlanması (ARDA, n.d., s. 2). Bu proses "sosializm quruculuğunun genişləndirilməsi", "kənddə mədəni quruculuq"la əlaqələndirildi. BDU-nun ilk azərbaycanlı rektoru olmuş Tağı Şahbazinin təşəbbüsü ilə gənc elmi qüvvələr axtarılır, universitetə dəvət olunurdular. S.Kazımbəyov, Ə.Ubaydulin, B.Çobanzadə, B.Həsənbəyov, B.Talıblı, V.Xuluflu və b. belələrindən idi. T.Şahbazi Universitetə görkəmli rus alimlərini də dəvət edirdi (ARDA, n.d., s. 2-nin arx.). Tağı Şahbazi türk xalqlarının birliyi ideyasına da biganə deyildi. Məsələn, onun razılığı ilə 08 may 1927-ci ildə Şərqşünaslıq şöbəsində prof. B.Çobanzadənin

rəhbərliyi ilə türkoloji kabinet açılmış, tədris üçün 3800 man. vəsait ayrılmışdı. "Anadolu türklərinin ədəbiyyatı" fənninin tədrisi haqda ADU İdarəsi qərar qəbul etmişdi (ARDA, n.d., s. 2). Prof. Ə.Qubaydulinə Dövlət Dumasının stenoqrafik hesabatlarından türk-tatar deputatlarının çıxışlarının çapı üçün 40 man. məbləğ ayrılmasına icazə verilmişdi (ARDA, n.d., s. 1-in arx.). II Dünya müharibəsindən sonra çoxmillətli ittifaq respublikalarından ibarət olan bir ölkədə milli şüurun inkişafının qaçılmaz olması fikrini Stalin dərk edirdi. Belə ki, Almaniya üzərində qələbədə rus xalqının xüsusi rolu məsələsi aparıcı ideologiyaya çevrilirdi. "Hakim millət" tezisi, "birləşdirmə" konsepsiyası özünü ictimai və tarix elmlərində daha bariz göstərməyə başladı. Akademik Heydər Hüseynovun 1949-cu ildə nəşr olunmuş "Azərbaycanda XIX əsr ictimai və fəlsəfi fikir tarixindən" kitabı ilə də məhz bu baş verdi. H.Hüseynov kitabında Mirzə Kazım bəyin "Müridizm və Şamil" əsərini Şamilin başçılığı altında dağlıların xalq-azadlıq hərəkatına həsr edilmiş tədqiqat adlandırır, Mirzə Kazımbəyin Şamili xalqın nümayəndəsi, dağlıların cəsur rəhbəri, ruhani və dünyəvi hakimiyyəti öz əllərində cəmləşdirən bir imam kimi səciyyələndirdiyini yazırdı. Heydər Hüseynov müridizmin Azərbaycanda da mövcud olduğunu, çarizmin müstəmləkəçilik zülmü əleyhinə çevrildiyini göstərirdi (Hüseynov, 2007, s. 149–153). 1950-ci ilin 3 iyulunda M.S.Bağırovun ÜİK(b)P-nin katibi Q.Malenkova ünvanlandığı məktubda indiyə qədər tarixi ədəbiyyatda Qafqaz müridizmi və Şamil hərəkatının düzgün işıqlandırılmadığı vurğulanır. M.C.Bağırovun Q.Malenkova göndərdiyi məqalə "Bolşevik" jurnalında çap edilir. Məqalədə Şeyx Şamil Türkiyənin və onun arxasında dayanmış İngiltərənin casusu adlandırılır. Əsas tezis də ondan ibarət idi ki, Rusiyaya birləşdirilmə bütün Qafqaz xalqları üçün böyük xoşbəxtlik olub. Bu məsələ ilə bağlı 1950-ci il 14–15 iyulda ziyalıların ümumbakı yığıncağında görkəmli alimlər, SSRİ EA-nın müxbir üzvü A.Makovelski, professorlar Ə.Sumbatzadə, M.İrəvanski, Y.Tokarjevski, Ə.Dəmirçizadə və başqaları kitabın mürtəce məğzini başa düşməyib ona müsbət rəy verməkdə günahlandırıldılar (İsmayılov, 2003, s. 253–256). Beləliklə, H.Hüseynov bütün vəzifələrdən azad edilmiş, ona verilən Stalin mükafatı geri alınmış, Azərbaycan SSR Elmlər Akademiyasının həqiqi üzvlüyündən çıxarılmış, özü isə nəzarətə götürülmüşdü. Bunlara dözə bilməyən filosof 1950-ci ildə intihar etmişdi. 1955-ci il yanvar ayının 13-də Azərbaycan KP MK-nın bürosunda "Həbsdən azad olan, sürgündən qayıdan və bəraət alan vətəndaşların ərizələrinə baxılması üzrə komissiya" yaradılması haqqında qərar qəbul edildi. Azərbaycan KP MK-nın bürosu 1955-ci il oktyabrın 21-də Heydər Hüseynovun elmi əsərlərindən istifadənin mümkünlüyü haqqında qərar qəbul etdi.

## Nəticə

Sovet hakimiyyəti 1920–40-cı illərdə xalqımızı öz milli-mənəvi köklərindən uzaqlaşdırmağa çalışsa da, Azərbaycan dövlət müstəqilliyini bərpa etdikdən sonra islam dini dəyərlərinin yayılması və təbliğinə, dini icmaların fəaliyyətinə, dini ayin və mərasimlərin icrasına geniş şərait yaradılmışdır, milli-mənəvi dəyərlər qorunur və təbliğ edilir. Yeni təhsil sisteminin yaradılmasında sovet hakimiyyətinin əsas məqsədi sovet rejiminə və mövcud quruluşa sədaqətli, kommunist ideologiyalı yeni gənc nəsil yetişdirmək, savadlı yerli kadrlar hazırlamaqdan ibarət olmuşdu. BDU-nun milliləşdirilməsi sovet hakimiyyətinin ideoloji siyasəti ilə bağlı olsa da, təhsilin türk (Azərbaycan) dilində aparılması həyata keçirildi, milli kadrların sayı artdı, BDU respublikada milli ali məktəbə çevrildi. Lakin 30-cu illərin repressiyaları 1946–1950-ci illərin əvvəllərində də davam etdirilmiş və bu, Azərbaycanda milli-mənəvi mühitə, xüsusən, təhsil, elm sahəsinə böyük zərbə vurmuşdu.

## Ədəbiyyat

1. Azərbaycan Respublikası Dövlət Arxivi. (n.d.). f. 1640, siy. 3, s.v. 34.
2. Azərbaycan Respublikası Dövlət Arxivi. (n.d.). f. 1640, siy. 3, s.v. 69.
3. Azərbaycan Respublikası Dövlət Arxivi. (n.d.). f. 1640, siy. 5, s.v. 303.
4. Azərbaycan Respublikası Dövlət Arxivi. (n.d.). f. 1640, siy. 5, s.v. 304.
5. Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi İctimai-Siyasi Sənədlər Arxivi. (n.d.). f. 1, siy. 4, s.v. 10.

6. Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi İctimai-Siyasi Sənədlər Arxivi. (n.d.). f. 1, siy. 5, s.v. 60.
7. Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi İctimai-Siyasi Sənədlər Arxivi. (n.d.). f. 1, siy. 6, s.v. 201.
8. Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi İctimai-Siyasi Sənədlər Arxivi. (n.d.). f. 1, siy. 32, s.v. 694.
9. Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi İctimai-Siyasi Sənədlər Arxivi. (n.d.). f. 1, siy. 74, s.v. 256–260.
10. Azərbaycan tarixi. (2001). 7 cilddə (VI cild). Elm.
11. Bünyadov, Z. (1993). *Qırmızı terror*. Azərnəşr.
12. Dekrety Azrevkoma (1920–1921 gg.): Sbornik dokumentov. (1988). Azərnəşr.
13. Gadzhibeyli, D. (1993). *Izbrannoye*. Azerneshr.
14. Hüseynbəyli, N. (2006). *XX əsrin 20–30-cu illərində Naxçıvan MSSR-də siyasi repressiya və onun nəticələri* (T.ü.f.d. dissertasiyası).
15. Hüseynov, H. (2007). *Azərbaycanda XIX əsr ictimai və fəlsəfi fikir tarixindən*. Şərq-Qərb.
16. İsmayılov, E. (2003). *Vlast i narod: Poslevoyennıy stalinizm v Azerbaydjane, 1945–1953*. Adiloğlu.
17. Lubyanka: Stalin i qlavnoye upravleniye gosbezopasnosti NKVD, 1937–1938. (2004). Materik.
18. Rəsulzadə, M. (1991). *Əsrimizin Səyavuşu*. Gənclik.
19. Sobraniye uzakoneniy i rasporyajeniy raboçe-krestyanskoqo pravitelstva Azerbaydjanskoy SSR. (1924). № 7. Narodnyy komissariat yustisii.

Daxil oldu: 13.12.2025
Qəbul edildi: 23.02.2026